# CƏFƏR CABBARLI

# Bütün əsərləri

PYESLƏR

QANUN NƏŞRİYYATI

Özündən əvvəlki teatr məktəbi ənənələrinə yeni nəfəs gətirən, milli teatrımızı gənclik ruhuna kökləyən, yüzlərlə aktyorun yetişməyində xüsusi rol oynayan ölməz dramaturq Cəfər Cabbarlı həm də incə qəlbli lirik şair, dövrün çirkinliklərini tənqid atəşinə tutan istedadlı satirik, ruh oxşayan hekayələr müəllifi kimi sevilən nasir, milli kinomuzun yaradıcılarından biri kimi xatırlanan və sevilən kino xadimidir. 35 illik həyatını yorulmadan ədəbiyyata, sənətə həsr edən ölməz ədibin əsərləri bu gün də maraqla qarşılanır, əhəmiyyətini itirmir, teatrlarımız dramaturqun pyeslərini yenə repertuarlarına daxil edir. C.Cabbarlının onlarla şeirinə musiqi bəstələnib, əsərlərinin motivləri əsasında “Sevil” və “Almaz” bədii filmləri lentə alınıb.

Bu kitab “Azərnəşr” Dövlət nəşriyyatı və “Elm” nəşriyyatı tərəfindən
əvvəllər buraxılmış kitablar əsasında nəşrə hazırlanmışdır.

**Cəfər Cabbarlı. Bütün əsərləri**

Janr: pyes
Yaş qrupu: 16+
Ölçü: 165x235 mm
Cild: yumşaq
Səhifə sayı: 680

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Qapaq dizaynı: | Rafael Qasım |
| Mətn dizaynı: | Ramin Əli |

Qanun Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pr., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-458-3

© Qanun Nəşriyyatı, 2017
© Azərnəşr, 1968, 1969

# MÜNDƏRİCAT

**NƏŞRİYYATDAN ....................................................................................7**

PYESLƏR

VƏFALI SƏRİYYƏ YAXUD GÖZ YAŞI İÇİNDƏ GÜLÜŞ.......................11
SOLĞUN ÇİÇƏKLƏR .....................................................................37
NƏSRƏDDİN ŞAH...........................................................................69
ULDUZ ............................................................................................119
ƏDİRNƏ FƏTHİ ..............................................................................151
AYDIN .............................................................................................187
OQTAY ELOĞLU ............................................................................231
OD GƏLİNİ .....................................................................................277
SEVİL...............................................................................................341
ALMAZ.............................................................................................387
1905-Cİ İLDƏ .................................................................................471
YAŞAR.............................................................................................537
DÖNÜŞ ............................................................................................597

## NƏŞRİYYATDAN

Elə şəxsiyyətlər olur ki, həyatla ölüm arasındakı sərhədi sanki yüyürərək keçirlər. Tələsən, daima fəaliyyətdə olan, hansısa bir işi başa çatdırmağa ömrün yetməyəcəyindən ehtiyat edən insanlar... Həyatı 35 illik ömrə sığışdıran Cəfər Cabbarlı da elələrindən olub. Onun uşaqlığı ağır keçmişdi; 5 yaşında ikən atasını itirən Cəfər anasının min bir əziyyətlə dolandırdığı ailədə böyümüş, hələ uşaq yaşlarından anasının bişirdiyi çörəyi satmaqla, ailəsinə kömək etməyə çalışmışdı.

Anası Şahbikə arvad kiçik oğlu Cəfəri savadlı görmək istəyirdi. Cəfər ilk təhsilini məhəllə mollasının yanında "Quran" ayələri oxumaqla almışdı. 1905-ci ildə Bakı maarifçisi Hacı Məhəmmədhüseyn Bədəlovun şəxsi mülkündə açılan "7-ci müsəlmani və rusi" məktəbinə Cəfər də digər şəhər uşaqları ilə birlikdə getmişdi. Burada gələcək dramaturqun bəxti gətirir, ilk müəllimi yazıçı-pedaqoq Süleyman Sani Axundov, sonra da Abdulla Şaiq, Rəhim bəy Şıxlinski, Əliməmməd Mustafayev kimi aydınlar olur. Onun ədəbiyyata marağı da elə həmin dövrdən başlayır, Azərbaycan və rus ədəbiyyatına maraq göstərməklə yanaşı, özü də şeirlər yazır. Böyük dramaturqun əlyazmaları arasında müxtəlif şeirlər, hekayələr, opera mətni, hətta roman da var. Amma bu mətnlər peşəkar yaradıcılıq işi deyil, yeniyetmə məktəbli səmimiyyətilə qələmə alınan ilk nümunələrdir.

Cəfər Cabbarlı ilk dram əsəri olan "Vəfalı Səriyyə"ni 16 yaşında, 1915-ci ildə qələmə alır. Daha sonra "Solğun çiçəklər" (1917), "Oqtay Eloğlu" (1922), "Od gəlini" (1928), "Sevil" (1928) və s. dramlarını yazır. Lirik-romantik hekayələri, lirik və satirik şeirləri, məqalələri onun son dərəcə işgüzar, məsuliyyətli, bütün bunların fövqündə isə qeyri-adi istedad sahibi olmağından xəbər verir.

C.Cabbarlı hansı sahədə çatışmazlıq, gerilik hiss edirdisə, özünü ora vurur, bacardığı köməyi göstərirdi. Azərbaycan milli kinosunun təşəkkül tapmasında, milli kino kadrlarının yetişdirilməyində onun müstəsna xidmətləri var. O, kino üçün ssenarilər yazır, ikinci rejissorluq edir, aktyorların tapılmasında yaxından iştirak edir-

di. Axşamlar "Kommunist" qəzeti redaksiyasında çalışır, gündüzlər kinostudiyada, teatrlarda işləyirdi. Böyük şəxsiyyət, tükənməz istedad sahibi C.Cabbarlının dillər əzbəri olan "Ana", "Ölkəm", "Tellər oynadı" şeirləri hər zaman sevgi ilə xatırlanır. Dramının motivləri əsasında "Almas" və "Sevil" filmləri çəkilib. Teatr tarixi muzeyi dahi dramaturqun adını daşıyır.

1899-cu ilin 20 martında – gözəl, aylı-ulduzlu yaz gecəsində – Bakı yaxınlığındakı Xızı kəndində anadan olan və 35 illik ömrünü doğma yurduna, onun maariflənməyinə, şöhrətlənməyinə həsr edən, həm gözəl pyeslər müəllifi olan dramaturq, həm romantik-psixoloji hekayələr müəllifi olan nasir, həm lirik, həm də satirik şeirlər müəllifi olan şair kimi də, jurnalist kimi də uğur qazanan ölməz Cəfər Cabbarlı 1934-cü ilin şaxtalı 31 dekabr axşamında gözlərini əbədi olaraq yumdu. Onun ölümü Bakını, eləcə də, bütün Azərbaycanı yasa batırdı. Amma bahar oğlunun xatirəsi, şöhrəti, yaratdığı əsərlər onu sevən xalqın qəlbində yaşadı və yaşayır.

# PYESLƏR